6 dekabr 2019-cu il

CEPEJ(2019)18

**ƏDALƏT MÜHAKİMƏSİNİN SƏMƏRƏLİLİYİ ÜZRƏ AVROPA KOMİSSİYASI (CEPEJ)**

**Mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti**

**CEPEJ-in mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsi**

---

# HAKİMLƏR ÜÇÜN MEDİASİYA BARƏDƏ MƏLUMATLILIQ SƏVİYYƏSİNİN ARTIRILMASI PROQRAMI

***Hakimlər tərəfindən mediasiyaya yönləndirilmənin effektivliyinin təmin edilməsi***

Sənəd Mediasiya üzrə Avropa Hakimlər Assosiasiyasının (GEMME) dəstəyi ilə hazırlanmışdır

***CEPEJ-in 33-cü plenar iclasında qəbul edilmişdir***
***Strasburq, 5 və 6 dekabr 2019-cu il***

*Bu tərcümə Avropa İttifaqı və Avropa Şurasının maliyyə dəstəyi ilə hazırlanmışdır. Onun məzmununa görə yalnız Avropa Şurası məsuliyyət daşıyır və Avropa İttifaqının fikirlərini əks etdirmir.*

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

Etiraf edilir ki, hakimlər mübahisələrin barışıq yolu ilə həlli mədəniyyətinin inkişaf etdirilməsində mühüm rol oynayırlar. Onlar mediasiya ilə bağlı məlumat verməli, məlumatlandırma sessiyaları təşkil etməli və lazım olduqda tərəfləri mediasiyadan istifadə etməyə dəvət etməli və/və ya işləri mediasiyaya yönləndirməlidirlər. Buna görə də onların mediasiya prosesi və onun faydaları haqqında dolğun biliyə və anlayışa malik olması vacibdir.

Hazırkı sənədin məqsədi hakimlərin mülki, ailə və cinayət işlərində (böyüklər və yetkinlik yaşına çatmayanlar) və inzibati işlərdə mediasiya haqqında məlumatlılıq səviyyəsini artırmaqdır. Analoji olaraq, bu sənəd mediasiyadan istifadə edən digər hüquqşünaslar, məsələn, prokurorlar və digər məhkəmə orqanları və onlara təlim verən qurumlar tərəfindən istifadə edilə bilər. Bu sənəd hakimlərin məhkəmə funksiyasını yerinə yetirərkən mediator rolunda çıxış etməsi üçün deyil, onların mediasiyaya effektiv yönləndirmə bacarıqlarını artırmaqla tərəflərin mediasiyaya prosesinə yolunu açmaq üçün nəzərdə tutulmuşdur.

Belçikada, Fransada və İsveçrənin fransızdilli bölgələrində həyata keçirilən təlim və maarifləndirmə proqramlarından ilhamlanaraq, sənədin hazırlanmasına aşağıdakı təlimçilər töhfə vermiş və şərhlərini təqdim etmişlər: Hakimlər Avi SCHNEEBALG, Brüssel məhkəmə sistemi institutunda hakimlər üçün təlimçi; Fabrice VERT, Bordo şəhərindəki milli magistratlıq məktəbində hakimlər üçün təlimçi; və Jan A. MIRIMANOFF, İsveçrə hakimlərinin davamlı təlimi üzrə fondun təlimçisi, fəxri hakim, mediator.

Avropa Şurasına üzv dövlətlərdə mediasiya tədrisinin və praktikasının geniş çeşidli müxtəlif metodları mövcuddur. Bununla belə, bu sənəd elə hazırlanmışdır ki, müxtəlif milli situasiyalara asanlıqla uyğunlaşdırıla bilər.

Bu sənəd "CEPEJ-in mediasiyaya dair rəhbər prinsipləri"nə (3. Məlumatlılıq) uyğun olaraq hazırlanmışdır.

## 1. Sənədə aidiyyəti olan kontekst

- Mülki işlərdə mediasiyaya dair Rec(2002)10 saylı Tövsiyə, VII fəsil: "Dövlətlər ədalət mühakiməsinin həyata keçirilməsində iştirak edən peşəkarlara mülki işlərdə mediasiya haqqında məlumat verməlidirlər".

- Ailə mediasiyası və mülki işlər üzrə mediasiyaya dair mövcud tövsiyənin daha yaxşı həyata keçirilməsi üçün rəhbər prinsiplər, CEPEJ(2007)14, № 50: "Hakimlər mübahisələrin barışıq yolu ilə həlli mədəniyyətinin inkişaf etdirilməsində mühüm rol oynayırlar. Buna görə də onların mediasiya prosesi və onun faydaları haqqında dolğun biliyə və anlayışa malik olması vacibdir. Buna məlumatlandırma sessiyaları vasitəsilə, eləcə də konkret yurisdiksiyalarda məhkəmələrin gündəlik işində faydalı olan konkret mediasiya elementlərini özündə əks etdirən ilkin və ixtisasartırma təlimləri vasitəsilə nail olmaq olar".

- "CEPEJ-in mülki, ailə, cinayət və inzibati işlər üzrə mediasiyaya dair rəhbər prinsiplərinin təsiri" haqqında CEPEJ-GT-MED-in hesabatı əsasında 27 iyun 2018-ci ildə qəbul edilmiş CEPEJ(2018)8 Yol Xəritəsi, "Tövsiyələr" bölməsi, 3-cü abzas, səh. 4: "Hakimlərin təhsil aldıqları müddətdə və ya hakimlik fəaliyyətinin birinci ilində mediasiya üzrə maarifləndirilməsi/hazırlıq keçməsi məcburi olmazsa, mülki, ailə, cinayət (böyüklər və yetkinlik yaşına çatmayanlar) və inzibati işlər üzrə mediasiyaya yönləndirilən işlərin sayı dəyişməz olaraq qalmaqla əhəmiyyətsiz miqdarda olacaq"; həmçinin həmin bölmədəki 2.1-ci cədvələ bax: "Vəkillər və hakimlər arasında mediasiya üzrə məcburi təlim keçmə və maarifləndirmə işinin gücləndirilməsi üçün təlim vəsaitlərinin hazırlanması və yayılması".

## 2. Mediasiya haqqında məlumatlandırma proqramlarının ümumi məqsədləri

İstənilən **ilkin məlumatlandırma** proqramı hakimlər üçün aşağıdakı imkanları yaratmalıdır:

- Mübahisələrin alternativ həllinin müxtəlif üsulları haqqında məlumatlı olmaq və konkret vəziyyətdə məqsədəuyğun olan rejimi müəyyən edə bilmək;
- Mübahisənivə onu müsbət məcraya yönəltmək üsulunu anlamaq;
- Məhkəmə tərəfindən effektiv yönləndirmə vasitəsilə mediasiyaya çıxış imkanı yaratmaq; bunun üçün hakimlər aşağıdakıları bacarmalıdırlar:
  a) Mediasiya üçün uyğun olan işləri müəyyən etmək və seçmək;

b) Məhkəmə prosesində iştirak edən tərəflərə və onların vəkillərinə mediasiya haqqında adekvat məlumat vermək üçün mediasiyanın xüsusiyyətlərini, prinsiplərini, məqsədlərini, yanaşma və üsullarını, mediasiya prosesinin işini başa düşmək;
c) Tərəflərə mediasiya mərkəzi və ya ixtisaslı mediatorlar tərəfindən həyata keçirilən mediasiya üzrə məlumatlandırma sessiyasında iştirak etməyi təklif etmək, məsləhət görmək və ya onları buna istiqamətləndirmək;
d) Məhkəmə prosesində iştirak edən tərəflərin məhkəmə icraatından mediasiya prosesinə keçidini asanlaşdırmaq.

Təlimin məzmunu və təlim metodologiyası müdavimlərin xarakteristikalarını, ilkin bilik səviyyəsini və praktik təcrübəsini nəzərə almalıdır. Təlimin məzmununun yetərliliyini və təlimin təşkilini təmin etmək üçün keyfiyyətə nəzarət və müstəqil monitorinq tədbirləri həyata keçirilməlidir. Ciddi şəkildə tövsiyə olunur ki, təlimin praktik hissələrinin təqdim edilməsi hakimlər, habelə mediasiya fəaliyyəti ilə məşğul olan, təlimçi qismində iş təcrübəsinə malik olan mediatorlar tərəfindən həyata keçirilsin.

**Davamlı maarifləndirmə** proqramı çərçivəsində hakimlər tərəfindən 2-ci və 3-cü yarımgünlərin proqramının təkrarlanması (bax. Əlavə 2) hakimlərin mediasiyaya yönləndirmə üzrə bilik və təcrübələrini yeniləməlidir.

### 3. Milli və beynəlxalq hüquqla əlaqədar konkret məqsədlər

- Mülki, ailə, cinayət işlərinə (böyüklər və yetkinlik yaşına çatmayanlar) və inzibati işlərə baxan hakimlərin öz sahələrinə aid milli qanunvericiliyi bilmələrini təmin etmək.

- Hakimləri öz yurisdiksiyalarında mediasiya üzrə pilot layihəsində iştirak etməyə hazırlamaq.

- Qanunla icazə verilən və ya nəzərdə tutulan hallarda mediasiya vasitələrindən (aktiv ünsiyyət və prinsipial (maraqlara əsaslanan) danışıqlar) istifadə etməklə hakimlərin barışığa nail olması imkanlarını artırmaq.

### 4. İlkin və davamlı təlimlərin müddəti

Mümkün olduqda ilkin təlim proqramları üçün dörd yarımgündən (ümumilikdə iki gündən) çox müddət ayrılması tövsiyə olunur.

Davamlı təlim proqramları üçün müntəzəm olaraq bir və ya iki yarımgünlük seans keçirilməsi tövsiyə olunur.

### 5. Təlimçilər və köməkçilər üçün tələb olunan resurslar

Tələb olunan resurslar iştirakçıların sayından asılı olacaq. 24 hakimdən ibarət qrup üçün ixtisaslı təlimçi (akkreditə olunmuş, razılaşdırılmış, and içmiş mediator) və üç köməkçidən ibarət komandanın iştirakı məlumatlılığın artırılmasında yaxşı effektivliyi təmin edir. Təlimçilərlə müdavimlərin say nisbətinə gəlincə, ideal halda 1 təlimçiyə maksimum 10-15 müdavim düşməlidir.

### 6. Tikililər

Məlumatlılıq səviyyəsinin artırılması proqramı hakimlərin məhkəmə fəaliyyətinin birinci ilində keçirildikdə, proqramın məhkəmə binalarında və ya onlara yaxın yerlərdə keçirilməsi tövsiyə olunur.

### 7. Tövsiyə olunan rəhbər vəsaitlər

CEPEJ tərəfindən qəbul edilmiş sənədlər (CEPEJ(2018)7), xüsusən:
- Hakim tərəfindən mediasiyaya yönləndirilmə üzrə Təlimat;
- İdarəetmə üzrə yoxlama siyahısı və pilot layihənin monitorinqi üzrə yoxlama siyahısı;
- Hakimlər üçün milli vəsaitlər və qısa biblioqrafiya.

### 8. Üzv dövlətlərin məhkəmə orqanlarına tövsiyələr

Maarifləndirmə/təlim proqramlarının səmərəliliyini (yəni onların davamlılığı, tezliyi və keyfiyyətini) təmin etmək üçün aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğun olar:
1. Hər bir apellyasiya məhkəməsində mediasiyaya, hakimlərin məlumatlılıq səviyyəsinin artırılmasına və pilot layihələrə cavabdeh olan hakim təyin etmək.
2. Hər bir yurisdiksiyada bu proqramların təşkilinə cavabdeh olan hakim təyin etmək.

3. Bu hakimin çalışdığı məhkəmədə mediasiya üzrə baş təlimçi olmaq və öz yurisdiksiyasında pilot mediasiya layihəsini təşkil etmək imkanına malik olması üçün mediasiya işi üzrə tam hazırlıq keçməsini təmin etmək.

## Əlavə 1

### Hakim tərəfindən mediasiyaya yönləndirilmə üzrə baza səviyyəli təlim proqramı

#### 1. Biliklərin inkişaf etdirilməsi

Təlim proqramları ən azı biliklərin inkişaf etdiriləcəyi bu əsas sahələri əhatə etməlidir:

1.1 Mediasiya – anlayış və konsepsiya

1.2 Mübahisələrin ənənəvi həlli və mediasiya

1.3 Mediasiyanın əsas prinsipləri

1.4. Mediasiyanın mərhələləri:

a. Hazırlıq
b. Açılış
c. Araşdırma
d. Danışıqlar
e. Razılaşma

1.5. İşlərin mediasiya üçün uyğunluğunun qiymətləndirilməsində göstəricilər və əks-göstəricilər

1.6. Tərəfləri mediasiyaya təşviq etmək üçün hakimlərdən tələb olunan keyfiyyətlər

1.7. Tərəflərin, onların vəkillərinin və mediasiyanın digər iştirakçılarının rolları

1.8. Tərəfləri mediasiyaya təşviq etmənin vaxtı

1.9 Mediasyanın hüquqi bazası və mediasiyaya aid qanunvericilik, o cümlədən məcburi mediasiyaya və medisiyada iştirakdan imtinaya dair hüquqi bazanın nəzərdən keçirilməsi (əgər varsa)

1.10 Mediatorlar, hakimlər, vəkillər, mediasiya istifadəçiləri və mediasiyada digər maraqlı tərəflər arasında qarşılıqlı əlaqə

1.11. Mediasiyaya yönləndirmə müsahibəsinin elementləri:

a. Mübahisənin diaqnozu
b. Müdaxilə planı
c. Danışıqlar aparmaq istəyinin olub-olmadığını araşdırmaq və onu artırmaq
d. Eskalasiyanın səviyyəsi
e. Mediasiya haqqında məlumat

1.12. Mülki, ailə, cinayət və inzibati işlərdə mediasiyanın əsas xüsusiyyətləri və fərqləri

#### 2. Praktik bacarıqların inkişafı üzrə təlim

Bacarıqların inkişafı baxımından hər hansı təlim proqramında əhatə edilməli, nümayiş etdirilməli və tətbiq edilməli olan əsas bacarıq mövzuları bunlardır:
a. Xüsusilə işdə həssas qruplar (uşaqlar, zərərçəkənlər və xüsusi diqqət tələb edən digər kateqoriyalar) iştirak etdikdə dinləmə bacarıqlarının formaları və ünsiyyət strategiyaları
b. Düzgün sualların verilməsi
c. Tərəflərin müxtəlif davranışlarına reaksiya göstərmə üsulları
d. Tərəflərin və vəkillərin mediasiyaya həvəsləndirilməsi və hazırlanması
e. Mübahisələrin həlli strategiyası və metodlarının ağlabatan seçimi də daxil olmaqla, işləri təhlil etmə bacarıqları

Hakim tərəfindən mediasiyaya yönləndirilmə üzrə təlim kursları müştərək, interaktiv və müdavim yönümlü olmalıdır. Bunu təmin etmək üçün müxtəlif tədris metodologiyalarından, o cümlədən mühazirə, videolar, interaktiv tapşırıqlar, fərdi iş, qrup müzakirəsi, cütlük halında söhbət və rollu oyunlar istifadə edilməlidir. Tövsiyə

olunur ki, effektiv mediatorluq prosesini və bacarıqlarını öyrətmək üçün nəzərdə tutulmuş hər hansı kursun praktiki hissəsinin əhəmiyyətli qismi rollu oyunlara, təlimatlandırmalara və əks əlaqəyə, həmçinin müzakirələrə və tapşırıqlara ayrılsın.

## Əlavə 2

### İlkin və davamlı təlimlərin proqramlarının konkret nümunəsi

**1) İlkin təlim proqramının konkret nümunəsi – təşkili və məzmunu**

Vaxt bu qaydada bölünür: əvvəlcə mühazirələr, sonra dəyirmi masalar, seminarlar və interaktiv rollu oyunlar keçirilir və yarım gün milli xüsusiyyətlərə həsr olunur. Müddətlər yalnız nümunə xarakteri daşıyır və konkret ehtiyaclara uyğun olaraq dəyişdirilə bilər. Həmçinin 10-cu fəslə bax: "Məhkəmə orqanlarına tövsiyələr".

Birinci yarımgün

A) Mübahisələrin alternativ həlli ilə tanışlıq və mübahisələrin ənənəvi həlli mexanizmləri ilə müqayisədə mediasiyanın yeri (mühazirə: 45 dəq.; və dəyirmi masa: 15 dəq.);
B) Münaqişə və hüquqi mübahisə (mühazirə: 45 dəq.; və dəyirmi masa: 15 dəq.);
C) Mediasiya: prinsiplər, üstünlüklər və məhdudiyyətlər (mühazirə: 45 dəq) / Konfidensiallıq mövzusunda dəyirmi masa və debatlar (15 dəqiqə);
D) Mediasiya və barışıq (mühazirə: 30 dəq) və praktik işlər üzrə çalışmalar (30 dəq). Barışıq barədə məlumatlı olmayan mütəxəssislər üçün: Mediasiya yanaşmaları və formaları (qabaqlama və bərpa)

Yarımgünün qiymətləndirilməsi

İkinci yarımgün

A) Aktiv ünsiyyət (mühazirə: 30 dəq.; və praktik məşğələlər 30 dəq.)
B) Prinsipial (maraqlara əsaslanan) danışıqlar və kollaborativ hüquqda və mediasiya prosesində onların tətbiqi (mühazirə: 15 dəq.; və məşğələlər 45 dəq.)
C) Mediasiya prosesi və onun mərhələləri, üçüncü tərəfin, tərəflərin və məsləhətçilərin/vəkillərin rolları (mühazirə: 30 dəq.)
Nümunəvi iş: rollu oyun (90 dəq.)
D) İşləri mediasiyaya yönləndirən hakimlərin keyfiyyətləri (dəyirmi masa 30 dəq.)

Yarımgünün qiymətləndirilməsi

Üçüncü yarımgün

Hakim tərəfindən mediasiyaya yönləndirilmə müsahibəsi və onun mərhələləri:
A) İşlərin müəyyən edilməsi və seçilməsi (mühazirə 15 dəq.); və praktik işlər (45 dəq.)
B) Mediasiya haqqında məlumatlandırma (mühazirə 15 dəqiqə) və rollu oyunlar, məsələn, məhkəmə iclasına aid rollu oyun (45 dəqiqə): hakim, tərəflər və onların vəkilləri arasında mübadilələrin simulyasiyası, danışıqlar aparmaq istəyinin olub-olmadığını araşdırmaq və onu artırmaq, mediasiyanın lehinə və əleyhinə arqumentlər, etirazlar və etirazlara cavablar
C) Məhkəmə icraatından mediasiya prosesinə keçidin qaydası və bu zaman tərəflərə dəstək: mühazirə (15 dəq.) və dəyirmi masa (45 dəq.)

Yarımgünün qiymətləndirilməsi

Dördüncü yarımgün

Milli xüsusiyyətlər, o cümlədən mediasiyaya dair hüquqi baza

Əgər uyğundursa, mediasiya üçün aşağıdakı işlər üzrə beş ayrıca qrup olmalıdır:
A) Ailə
B) Mülki
C) Cinayət (böyüklər)
E) Cinayət (yetkinlik yaşına çatmayanlar) və
F) İnzibati işlər

- Hakim tərəfindən mediasiyaya yönləndirilmə;
- Barışdırıcı hakimin mediasiya vasitələrindən istifadə etməsi
- İşlərin mediasiya vasitəsilə həllinin gücləndirilməsi: mediasiya qərarının təsdiqlənməsi və icrasının məcburiliyi. Milli və beynəlxalq aspektlər

Yarımgünün və təlimin qiymətləndirilməsi

**_2)_ Davamlı təlim proqramının konkret nümunəsi**

<u>Birinci yarımgün</u>

A) Aktiv ünsiyyət (mühazirə: 30 dəq.; və praktik məşğələlər 30 dəq.)
B) Prinsipial (maraqlara əsaslanan) danışıqlar və kollaborativ hüquqda və mediasiya prosesində onların tətbiqi (mühazirə: 15 dəq.; və məşğələlər 45 dəq.)
C) Mediasiya prosesi və onun mərhələləri, üçüncü tərəfin, tərəflərin və məsləhətçilərin/vəkillərin rolları (mühazirə: 30 dəq.)
Nümunəvi iş: rollu oyun (90 min)

Yarımgünün qiymətləndirilməsi

<u>İkinci yarımgün</u>

Hakim tərəfindən mediasiyaya yönləndirilmə müsahibəsi və onun mərhələləri:

A) İşlərin müəyyən edilməsi və seçilməsi (mühazirə 15 dəq.); və praktik işlər (45 dəq.)
B) Mediasiya haqqında məlumatlandırma (mühazirə 15 dəqiqə) və rollu oyunlar, məsələn, məhkəmə iclasına aid rollu oyun (45 dəqiqə): hakim, tərəflər və onların vəkilləri arasında mübadilələrin simulyasiyası, danışıqlar aparmaq istəyinin olub-olmadığını araşdırmaq və onu artırmaq, mediasiyanın lehinə və əleyhinə arqumentlər, etirazlar və etirazlara cavablar
C) Məhkəmə icraatından mediasiya prosesinə keçidin qaydası və bu zaman tərəflərə dəstək: mühazirə (15 dəq.) və dəyirmi masa (45 dəq.)

Yarımgünün və təlimin qiymətləndirilməsi